11 may 1999-cu ildən GS1 Beynəlxalq Assosiasiyasının üzvüdür

# GS1 Azerbaijan İctimai Birliyinin 25 illiyi

## «GS1 Azerbaijan»ın tarixi

**1999-cu il**

• «EAN International»ın Berlində keçirilən Baş Assambleyasında Azərbaycandan olan təşəbbüs qrupunun müraciətinə baxılmış və ona 476 prefiksi ayrılmışdır.

• Respublikanın ilk 23 təşkilatı istehsal olunan 600 növ məhsul üçün ştrixkodlar almışdır.

**2000-ci il**

• Ştrixkod istifadəçiləri üçün təlim-metodiki kabinet yaradılmışdır.

• «EAN Azerbaijan» ilə «EAN Rusiya» assosiasiyası arasında əməkdaşlıq sazişi imzalanmışdır.

**2001-ci il**

• Yerli əmtəə istehsalçılarının ştrixkodlarının Depozitariyası yaradılmışdır.

• Pekin şəhərində (Çin) «EAN International»ın Baş Assambleyasında iştirak.

• «EAN Azerbaijan»ın ofisində «GS1 Azerbaijan» istifadəçiləri üçün təlim-metodiki kabinet yaradılmışdır.

**2002-ci il**

• «EAN Azerbaijan»ın internet saytı yaradılmışdır.

• «EAN Azerbaijan» ofisində ştrixkodlu yerli məhsulların daimi sərgisi fəaliyyətə başladı.

• Amsterdam şəhərində (Hollandiya) «EAN International»ın Baş Assambleyasında iştirak.

**2003-cü il**

• «EAN Azerbaijan»ın ştrixkod bazası GEPIR Beynəlxalq axtarış sisteminə qoşuldu.

• Yerli əmtəə istehsalçılarına təyin edilmiş ştrixkodların sayı 3200 olmuşdur.

**2004-cü il**

• Azərbaycanda avtomatik identifikasiya sisteminin tətbiq dairəsinin genişləndirilməsi ilə bağlı «EAN Azerbaijan»ın ofisində bir sıra seminarlar keçirilmişdir.

• Vyana şəhərində (Avstriya) «EAN International»ın Baş Assambleyasında iştirak.

• Ştrixkodlu məhsulların sayı 4700 adı keçmişdir.

**2005-ci il**

• Bizim yeni adımız var — «GS1 Azerbaijan».

• «GS1 Azerbaijan»ın səlahiyyətləri haqqında GS1 Sertifikatının əldə edilməsi.

• Kişinyov şəhərində (Moldova) regional forumda iştirak.

**2006-cı il**

• Ştrixkodlaşdırma üzrə 4 Azərbaycan dövlət standartı hazırlanmış və təsdiq edilmişdir.

• Azərbaycanda GS1 sisteminin istifadəçilərinə GLN — Qlobal Yerləşmə Nömrəsinin verilməsinə başlanmışdır.

• Maltada GS1 Baş Assambleyasında iştirak.

**2007-ci il**

• Gəncə şəhərində «İqtisadiyyatın real sektorlarında ştrixkodlaşdırma» mövzusunda təqdimatın keçirilməsi.

• Seul şəhərində (Cənubi Koreya) GS1 Baş Assambleyasında iştirak.

• Respublikanın 500-cü əmtəə istehsalçısı GS1 sistemində qeydiyyatdan keçmişdir.

**2008-ci il**

• «GS1 Azerbaijan»ın saytının yeni versiyasının hazırlanması — www.gs1az.org.

• «Zebra», «Datalogic» və «İnfotek və Servis» şirkətləri ilə birgə «Avtomatik identifikasiyanın müasir üsulları» mövzusunda seminarın keçirilməsi.

• Dubrovnik şəhərində (Xorvatiya) GS1 Baş Assambleyasında iştirak.

• GS1 sistemindən Azərbaycanda 600 əmtəə istehsalçısı istifadə edir.

**2009-cu il**

• «Ştrixkodlaşdırma. Ümumi müddəalar» dövlət standartının hazırlanması və təsdiq edilməsi.

• Mingəçevir şəhərindəki «KÜR» kompyuter texnikası zavodunda təqdimatın keçirilməsi.

• Santyaqo şəhərində (Çili) GS1 Baş Assambleyasında iştirak.

• Azərbaycanın 700-cü istehsalçısı ştrixkodlu məhsullar istehsal etməyə başladı.

**2010-cu il**

• Azərbaycanda ştrixkodlaşdırma texnologiyasına həsr olunmuş «Ştrixli Kodlaşdırma sual və cavablarla» adlı ilk kitabın nəşri.

• «GS1 Azerbaijan» GEPIR-in yeni versiyasına qoşuldu.

**2011-ci il**

• Sankt-Peterburq şəhərində (Rusiya) tərəfdaşlıq konfransı.

• Azərbaycanda beynəlxalq ştrixkodlaşdırma sisteminin istifadəçilərinin sayı 1000-i ötmüşdür.

• «Ştrixli Kodlaşdırma sual və cavablarla» kitabı Azərbaycan dilində nəşr olunmuşdur.

**2012-ci il**

• Datalogic (İtaliya) şirkəti ilə tərəfdaşlıq müqaviləsi imzalanmışdır.

• «GS1 Azerbaijan»ın və Datalogic (İtaliya) və Technoware (BƏƏ) şirkətlərinin mütəxəssislərinin iştirakı ilə «Ştrixkodlardan istifadə» layihəsi ilə bağlı videokonfrans keçirilmişdir.

• Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin dəvəti ilə yerli istehsalçılar üçün «GS1 Azerbaijan» Cəmiyyətinin Naxçıvanda təqdimatı keçirilmişdir.

**2013-cü il**

• «Əmtəə vahidlərinə GTIN nömrələrinin təyin edilməsi qaydaları» azərbaycan dilində hazırlanmışdır.

• Los Anceles şəhərində (ABŞ) GS1 Baş Assambleyasında iştirak.

**2014-cü il**

• «Saxta məhsullara qarşı ştrixkodlar» mövzusunda videokonfrans GS1 Azerbaijan — Authenticate IT (Avstriya).

• Ümumdünya Gömrük Təşkilatının (ÜGT) regional mərkəzinin əməkdaşları ilə görüş.

**2015-ci il**

• Radiotezlik identifikasiyası avadanlığı istehsalçısı Nordic ID şirkəti (Finlandiya) ilə birgə RFID texnologiyasının təşviqinə dair təqdimat keçirilmişdir.

• Azərbaycan Kənd Təsərrüfatı Nazirliyində və Avropa İttifaqının Azərbaycandakı Nümayəndəliyində GS1 qlobal standartlarının kənd təsərrüfatında tətbiqi ilə bağlı görüşlər keçirilmişdir.

• «Citizen» şirkəti (Yaponiya) ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır.

**2016-cı il**

• Avtomatik identifikasiya və məlumatların toplanması texnologiyası sahəsində MTK 517 Standartlaşdırma üzrə Dövlətlərarası Texniki Komitənin İclasında iştirak.

• İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin ofisində Azərbaycan məhsullarının elektron pasportlarının məlumat bazasının yaradılması məsələsi ilə bağlı işgüzar görüş keçirilib.

**2017-ci il**

• GS1 Azerbaijan sisteminin istifadəçiləri üçün elektron qeydiyyat sisteminin və ştrixkodların əldə edilməsi üçün məsafədən daxilolmanın yeni versiyası istifadəyə verilmişdir.

• İl ərzində «GS1 Azerbaijan» ofisində 2000-dən çox insana ştrixkoddan istifadə etmək üçün məsləhətlər verilmiş və sənədlər təqdim edilmişdir.

• London şəhərində (Böyük Britaniya) GS1 Baş Assambleyasında iştirak.

**2018-ci il**

• Yerli məhsulların ştrixkodlarının qanuniliyini yoxlamaq üçün «GS1 Azerbaijan AZE Barcode» mobil tətbiqinin istifadəyə verilməsi.

• «Bizone» şirkəti (Sankt-Peterburq) ilə birlikdə Azərbaycan banklarının İT sektorlarının mütəxəssisləri üçün «Ödəniş sənədlərinin işlənməsi zamanı ikiölçülü kodların istifadəsi» mövzusunda təqdimat-seminar keçirilmişdir.

**2019-cu il**

• Azərbaycanda iri və orta biznes nümayəndələri üçün «SOLVO» şirkətinin «Anbar əməliyyatlarının optimallaşdırılmasında informasiya texnologiyaları» mövzusunda təqdimatının keçirilməsi.

• İstanbul şəhərində (Türkiyə) GS1 Baş Assambleyasında iştirak.

**2020-ci il**

• Pandemiya səbəbindən seminar-təqdimatlar ilk dəfə vebinar şəklində təşkil edilmişdir.

**2021-ci il**

• Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti ilə «GS1 Azerbaijan» MMC arasında elektron məlumat mübadiləsi təmin edildi.

**2022-ci il**

• KOBİA-nın dəstəyi ilə Quba — Xaçmaz, Lənkəran — Astara , Şəki — Zaqatala iqtisadi rayonlarında seminar-təqdimatlar təşkil edilmişdir.

• Avtomatik identifikasiya sahəsində «GS1 sistemində Əmtəə Nömrələrinin Formalaşması, Ayrılması, Qeydiyyatı, Tətbiqi və Nəzarət Qaydaları» Dövlət Standartı təsdiq edimişdir.

**2023-cü il**

• «GS1 Azerbaijan» MMC təşkilati hüquqi formasını dəyişərək, «Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyi olaraq fəaliyyətini davam etdirmişdir.

• www.gs1az.org saytı və şəxsi kabinet yeniləndi. «GS1 AZ» mobil tətbiqi yeni versiyada təqdim edildi.

**2024-cü il**

• Dövlət Gömrük Komitəsi tərəfindən edilən dəyişikliyə əsasən gömrük bəyannamələrinə GTIN sütunu əlavə edilmişdir.

• «Dərman vasitələrinin Təqib və İzlənmə Sistemi»nin məlumat bazasına uyğunluğunun təmin edilməsi məqsədilə Səhiyyə Nazirliyi Analitik Ekspertiza Mərkəzi ilə «GS1 Azerbaijan» İctimai Birliyinin məlumat bazaları arasında elektron məlumat mübadiləsinin təşkil edilməsi üçün Tərəflər arasında Razılaşma imzalandı.

## BEYNƏLXALQ ƏMTƏƏ ŞTRİXKODLARININ AZƏRBAYCANDA 25 İLLİK TƏBLİĞİ VƏ TƏTBİQİ



***1999-cu ilin may ayının 11-də Berlində «EAN-International» Assosiasiyasının (2005-ci ildən sonra Assosiasiya GS1 adlanır) Baş Assambleyasında Azərbaycan Ştrixkod İstifadəçiləri Cəmiyyəti yekdilliklə bu beynəlxalq Assosiasiyaya üzv qəbul olunmuşdur və ona 476 prefiksi ayrılmışdır. Bu prefiks EAN/UCC sisteminin ştrixkodlarının təyin edildiyi məhsul və xidmətlərin unikal məlumat bazasını idarə etməyə imkan verir.***

«GS1 Azerbaijan» İctimai Birliyi GS1-in milli üzv-təşkilatı kimi Azərbaycanda Beynəlxalq GS1 Assosiasiyasını təmsil edən yeganə təşkilatdır. Hazırda 120-yə yaxın ölkə bu Assosiasiyanın üzvüdür. «GS1 Azerbaijan» — Azərbaycan Respublikası ərazisində fəaliyyət göstərən, əmtəələrin nömrələnməsi və ştrixkodlaşdırılması üzrə beynəlxalq standartlardan istifadə edən, hüquqi şəxslərdən və fərdi sahibkarlardan ibarət qeyri-kommersiya təşkilatıdır.

GS1 sistemi — məhsullar, xidmətlər, aktivlər, məkanlar, nəqliyyat vahidləri və s. üçün unikal identifikasiya nömrələrini əhatə edən beynəlxalq, çoxsahəli açıq standartdır. GS1 sistemi istənilən obyektin avtomatik rəqəmsal identifikasiyası üçün istifadə olunur ki, bu da GS1 identifikasiya nömrələri sistemindən — istehsalçıların, ixracatçıların, idxalçıların, ekspeditorların, topdan və pərakəndə satıcıların məlumat mübadiləsi apara biləcəyi ümumi dildən istifadə etməklə əldə edilir. GS1 sistemi, biznesin səmərəliliyinin artırılmasına, uçot obyektlərinin identifikasiyası proseslərinin təkmilləşdirilməsinə və məlumat axınlarının təşkilinə yönəldilmişdir.

GS1 standartları dünyanın bir çox sektorlarında təchizat zənciri proseslərini sadələşdirməklə müasir qlobal biznesə kömək edir.

Ən geniş şəkildə inkişaf etdirilmiş əmtəələrin nömrələnməsi




məhsullara GTIN-lərin (ing. Global Trade Item Number — Əmtəənin Qlobal İdenifikasiya Nömrəsi) — unikal əmtəə nömrələrinin təyin edilməsinə və onların məhsulların üzərinə ştrixkod şəklində tətbiq olunmasına əsaslanır. GTIN — təchizat zəncirinin ən vacib standartı olan ştrixkod nömrəsidir. Statistikaya əsasən ştrixkod gündə altı milyarddan çox skan edilir və dünyanın ən etibarlı simvollarından biri olaraq qalır.

Bu gün GS1 assosiasiyası məhsul və xidmətlərin identifikasiyası üçün yeni standartlara, yəni növbəti nəsil ştrixkodların hazırlanmasına keçidi hədəfləyir. Söhbət, ilk növbədə, daha çox məlumat ehtiva edən və istehlakçıları etibarlı məlumatlarla təmin etmək üçün istifadə edilə bilən QR-kodlar və DataMatrix kimi ikiölçülü kodlardan gedir.

Onların istifadəsi istehlakçılara, məsələn, məhsulda allergenlərin olub-olmadığı, onun orqanik olub-olmadığı və ya karbon izi haqqında məlumat verə bilər. Nəticədə, bu, istehlakçılara aldıqları məhsullara daha yüksək inam və loyallıq səviyyəsi verir.

Hazırda 25 illik fəaliyyəti nəticəsində «GS1 Azerbaijan»ın 1500-ə qədər aktiv üzvü var və onun məlumat bazasında 170 000-dən çox məhsul haqqında məlumat saxlanılır.

Biz, bu hədəflərə çatmaqda oynadıqları mühüm rola görə bütün üzvlərimizə təşəkkür edirik. 23 may 2024-cü il tarixində Romada (İtaliya) keçirilən GS1 Baş Assambleyasında «GS1 Azerbaijan» İctimai Birliyi bu assosiasiyaya üzvlüyünün 25-ci ildönümü ilə əlaqədar xatirə yubiley sertifikatı ilə təltif edilmişdir.




Azərbaycanda Qlobal Biznes Dilinin 25-ci ildönümünü qeyd edən «GS1 Azerbaijan» İctimai Birliyi, məhsulların satışının və istehlakçılara məlumatların yayılmasının səmərəli, etibarlı və təhlükəsiz şəkildə həyata keçirildiyi bir sistemin qurulmasına töhfə vermək üçün hər cür səy göstərir.

Məlumat həcminin artdığı bir dünyada GS1 standartları tədarük zəncirində məlumatların identifikasiyası, toplanması və paylaşılması üçün cəmiyyətə ümumi dil təqdim edir və, bununla, mühüm məlumatların əlçatan, dəqiq və asan başa düşülməsini təmin edir.

Qarşıdan gələn 10 illik ərzində GS1 Azerbaijan cəmiyyəti ikiölçülü ştrixkodların təşviqi, izlənmə, ərzaq təhlükəsizliyi məsələlərinin həllində GS1 standartlarından istifadə, Azərbaycan bazarında yerləşən məhsulların elektron məlumat bazalarının yaradılması kimi sahələri öz strateji məqsədləri olaraq müəyyən etmişdir. Gömrük və vergi prosedurlarında GS1 standartlarının tətbiqi üçün normativ-hüquqi bazanın yaradılması kimi mühüm vəzifənin həlli üçün dövlət qurumları ilə əlaqələrin gücləndirilməsi istiqamətində işlərin fəallaşdırılması nəzərdə tutulur.

*«GS1 Azerbaijan»*
*İctimai Birliyinin*
*İdarə Heyətinin sədri*
*Vəfa Əliyev*

## GS1 Azerbaijan has been congratulated by:

GS1 Türkiye
Elif MUFTUOGLU
CEO



GS1 in Europe
Camille DREYFUSS
General Secretary



GS1 España
Pere Rosell Plajats
CEO



GS1 Moldova
Galina Birsanu
CEO



GS1 Austria
Gregor Herzog
CEO



GS1 Bulgaria
Tzveta Bratanova
CEO



GS1 Georgia
George Laliashvili
CEO



GS1 Latvia
Liene Saurina
CEO



## Azərbaycan istehsalçıları tərəfindən təbrik məktubları göndərildi:

«TAC» MMC, «Gazelli Group» MMC, «Sabirabadkonserv» ASC, «Bakı Şərab -1» ATSC, Carlsberg Azerbaijan MMC, Zəhmət-Ruzi MMC, Qax Mineral Su-İlham Firması, Səhliyalı KM, Salyan Qida Məhsulları İstehsalat Kommersiya Şirkəti, M&T Ltd Şirkəti, Avrora MMC, «LƏZZƏT AA» MMC, «Rəmzi-S» MMC,«Milk-Pro» MMC, «Günel-3» KM, «Gəncə Şərab — 2» ASC.



Ünvan: AZ1010 Azərbaycan, Bakı, Xaqani küç. 90A
**Tel:** +994124981058 +994124987405
**e-mail:** *ean@gs1az.org* ***www.gs1az.org***

*Hazırladılar:* ***S. ƏLİYEVA,*** «GS1 Azerbaijan» İctimai Birliyinin İcraçı direktoru;
***Ə. EYVAZOV,*** «Vışka» qəzetinin kompyuter mərkəzinin direktoru.